# Ermənilərin azərbaycanlılara qarşı soyqırımı insanlıq əleyhinə cinayətdir

***Ermənilər tərəfindən uzun illər ərzində xalqımıza qarşı çoxsaylı kütləvi qətliamlar törədilib, soyqırımı aktları həyata keçirilib. İnsanlığa sığmayan bu əməllər həm beynəlxalq hüquq normaları ilə müəyyənləşdirilən konvensiyalara, həm də mənəvi-əxlaqi kodekslərə görə, bəşəriyyət əleyhinə cinayət kimi qiymətləndirilib.***



AMEA Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru Emin Bağırov vurğuladığı bu məqamla bağlı daha sonra dedi:

– Ermənilərin soydaşlarımıza qarşı qətliamları sırasında 31 Mart soyqırımı aktı dəhşətli nəticələri ilə diqqət çəkir. Başqa sözlə, 1905-1907-ci illərdə həyata keçirilən kütləvi qətliamdan sonra erməni faşizminin 1918-ci ilin martında havadarlarının köməyi ilə törətdiyi soyqırımının miqyası daha böyükdür. Düşmən həmin dövrdə regionda yaranan vəziyyətə uyğun olaraq, bolşevizm ideyalarından yararlanaraq, məkrli planını həyata keçirib. Sıralarında çoxlu sayda erməni millətçilərinin cəmləşdiyi Bakı Kommunası “əks-inqilabçılara qarşı mübarizə” şüarı altında azərbaycanlıların tamamilə məhv edilməsi kimi cinayətkar planı reallaşdırıb. Belə ki, 1918-ci il martın 30-dan aprelin 2-dək Bakı və onun ətraf kəndlərində müsəlman əhalisi məqsədli şəkildə soyqırımına və talanlara məruz qalaraq, 11 mindən artıq günahsız insan qətlə yetirilib. Düşmən cinayətin izini itirmək üçün meyitləri od-alova bürünən evlərə, dənizə və quyulara atıb, Bakıda “Dağıstan”, “İsgəndəriyyə” və “İsmailiyyə”ni yandırıb.

Onu da qeyd edim ki, həmin vaxt törədilən soyqırımı Bakı ilə yanaşı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər yerlərdə də xüsusi qəddarlıqla həyata keçirilib. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: “1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur”.

Tarixi mənbələrdən aydın görünür ki, azərbaycanlıların qətlə yetirilməsi, soyqırımına məruz qalması aktları davamlı olub. Məsələn, 1920-ci ilin may ayından 1921-ci ilin noyabrına qədər Azərbaycanda erməni cəlladları tərəfindən 48 min nəfər qətlə yetirilib. Həmçinin 1930-cu illərdə də xalqımız bolşevik hökuməti tərəfindən müxtəlif repressiyalarla soyqırımına məruz qalıb. Nəhayət, 1988-ci ildən başlayaraq, Ermənistan xalqımıza qarşı düşmənçiliyini daha da gücləndirib, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində XX əsrin ən dəhşətli soyqırımlarından birini törədib. Bütün bunlarla kifayətlənməyən erməni faşizmi əzəli-əbədi torpaqlarımızı işğal altında saxlamaqla, şəhər və kəndlərimizi, maddi-mədəni abidələrimizi yer üzündən silməklə, terrorlar reallaşdırmaqla, dinc insanları qətlə yetirməklə çoxsaylı müharibə cinayətlərinə imza atıb.

Xalqımız işğalçının törətdiyi cinayət əməllərini, soyqırımı aktlarını heç zaman unutmayıb. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti düşmənin ağır cinayətlərinin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaradaraq, aşkarlanan həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görüb. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılıb, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb. Yalnız ümummilli liderimiz Heydər Əliyev dəhşətli 31 mart soyqırımına ilk dəfə olaraq siyasi-hüquqi qiymət verib. Dahi şəxsiyyət 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı haqqında” müvafiq fərman imzalayıb. Həmin sənəddə 1918-ci ildə baş verən soyqırımı hadisəsinin siyasi-hüquqi qiyməti öz ifadəsini tapıb və 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Təbii ki, Prezident İlham Əliyev də erməni faşizminin soyqırımı cinayətlərinin bütün dünyaya tanıdılmasında önəmli tədbirlər həyata keçirib. Dövlətimizin başçısı “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi” haqqında 18 yanvar 2018-ci il tarixli sərəncam imzalayıb. Sənəddə erməni-bolşevik silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin davamlı olaraq ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılmasının zəruriliyi xüsusi vurğulanıb.

Ermənilərin xalqımıza qarşı törətdikləri qətliamla bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında Heydər Əliyev Fondu da çox mühüm rol oynayıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond istər ölkəmizdə, istərsə də respublikamızın hüdudlarından kənarda bu istiqamətdə çox vacib layihələr reallaşdırıb. Heydər Əliyev Fondunun dəstəyi ilə Quba Soyqırımı Memorial Kompleksi yaradılıb.

Ötən illər ərzində aparılan araşdırmalar sayəsində erməni faşizminin insalığa sığmayan cinayətləri ilə bağlı çoxsaylı yeni fakt və sənəd toplanıb. Vətən müharibəsindən sonra da işğaldan azad edilən ərazilərdə aşkarlanan kütləvi məzarlıqlar isə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirib.

***Söhbəti qələmə aldı:***
***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 31 mart.- S.9.